# Ağlın toxluğundan qəlbin aclığına

## (Lev Tolstoyun "Anna Karenina" romanı haqqında)



■ Fərid Hüseyn

*əvvəli ötən sayda*

### Ailə və din

Anna Kareninanın ölümündən sonra Levin xəttinin davam etməsi, uzandıqca uzanması, əslində, bu əsərin məhəbbət romanı olmadığının bariz nümunəsidir. Əgər əsərdəki Anna xəttində "ailə müqəddəsdir, onu qorumaq lazımdır" fikri təlqin olunursa, Levin xətti dünyada ailədən də müqəddəs olan "mənim ömrümdəki Allah kimdir və mən onun varlığını necə tamamlamalıyam" ideyası ortalığa atılır ki, bu ideya da insan həyatının mahiyyətini bir sıra cəhətləri ilə təyin edir. "Ailə müqəddəsdir" fikri Annanın ölümü - özünü cəzalandırılması ilə tamamlanır. Sanki bir həqiqət ilahi cəza kimi yekunlaşır, Levin xətti isə həqiqətə anlayaraq - ilahi hikməti dərk edərək, bağışlanaraq çatır. Sanki müəllif təlqin edir ki, zülm ilə dözüm, cəza ilə bağışlanmaq həmişə var, ilahi cəza qədər Tanrının insanı bağışlaması, hidayət edib düzgün yola istiqamətləndirməsi də əbədidir. Əgər əsər sadəcə Annanın ölümü ilə tamamlansaydı, onda Levin xəttinin heç bir mahiyyəti qalmayacaqdı və bu əsər başdan sona nihilist, bədbəxtlik təlqin edən - heç bir çıxış yolu göstərməyən bir romana çevriləcəkdi.

Ancaq məsələnin başqa bir tərəfi də var, Annanın ölümündən sonra aydın olur ki, Levin də tam mənada xoşbəxt deyil. O, Kiti ilə qismən səadətlidir, ailəsində firavanlıq bərqərar olunub, fəqət onun qəlbindəki bəzi suallar cavabsızdır deyə, onlara cavab tapmadığı üçün o, daxili təbəddülatlar keçirir, onu əzən fikirlərin əsiridir. Sanki, Tolstoy ailə məsələsini burada bir qədər istisnalaşdırır, yəni ailənin düşünə bilən, dərin insan üçün yalnız xoşbəxtliyin vacib qollarından biri kimi seçdirir. Levin öz qəlbində Allah ideyasını aydınlaşdırmayıb, ona görə də o, ona bəxş olunan xoşbəxtliyin, ümumiyyətlə nikbin baxdığı hər şeyin havadan asılı qaldığını fərqinə varır, o, düşünə bilmir ki, onu xoşbəxt edən qüvvənin mahiyyəti nədədir. Tolstoyun şəxsi düşüncələri Levin timsalında üzə çıxır. Tolstoy din haqqında düşünürdü ki, dinin insan həyatındakı mahiyyəti böyükdür, insanlar heç zaman dindən uzaq olmamışlar və bütün dövrlərdə də bu reallıq dəyişməyəcək. Ancaq o, Allah və din ideyasının kilsələr və digər məbədlər, dini ocaqlar tərəfində təhrif edildiyini düşünürdü. Hesab edir ki, din xadimləri dini düşüncələrə ziddiyyətlər gətirirlər, qəlblərdəki Allah ideyasını o qədər bəsitləşdirirlər ki, bu məsələləri çözmək, anlamaq istəyən insanlarda Allaha və onun varlığına şübhə oyanır. Bu isə dini əqidənin əleyhinə olan bir məqamdır. Çünki dində ziddiyyət olmamalıdır, Allahı şübhəsiz, səmimiqəlbdən dərk etməlisən. Tolstoya görə insanların dinə meyl etməsinin səbəbi, yaxud dünya bərqərar olan gündən daim dinlərin mövcud olmasının məqsədi o idi ki, din insanların əsas bir arzusunu yerinə yetirməyi özünə öhdəlik hesab edirdi. Həmin öhdəlik, həmin arzu nədən ibarət idi? Bütün dinlərin dəyişməz bir təlqini ondan ibarət idi ki, bütün dinlər insanlara bərabərlik ideyası təlqin edir. Allahın nəzərində hamı birdir, çünki hər kəsi Allah yaradıb. Bu, ideya şüuraltı olaraq insanlar arasındakı bütün vəzifə, kasta, təbəqələşmə ideyasının əleyhinə çıxır. Cəmiyyətdə, bu cür bərabərlik mövcud deyil və heç zaman da tam şəkildə var olmayıb. Ölümün varlığı da bu ideyanı təsdiqləyir - kimliyindən asılı olmayaraq. hər kəs ölümü dadır. Fəqət din xadimləri dinin mahiyyətində dayanan və insanları dinə bağlayan əsas məsələlərdən birini - insanların bərabərliyi düşüncəsini təhrif edir, çoxsaylı müqəddəsləri misal gətirərək bu cür bərabərliyi pozurlar. Məsələn, dini düşüncəyə görə biri mömin, biri kafir olur, biri müqəddəs, biri isə adi insan olur. Əslində, kilsələr, ayrı-ayrı din ocaqları bu cür təbəqələşmə yaradırlar. Tolstoy bunun bir səbəbini dini kitabların təhrif olunmasında görürdü. Biz bu düşüncələrə onun "Din nədir və onun mahiyyəti nədən ibarətdir" kitabında rast gəlirik Levin də demək olar ki, həmin məsələlər haqqında düşünür: "Qardaşı Sergey İvanoviç ona Xomyakovun əsərlərinin ikinci cildini oxudu və əvvəlcə onda ikrah doğuran mübahisəli, incə və məzəli üsluba baxmayaraq, kilsə haqqındakı fikirlərə heyran qaldı. Öncə bu fikirlərdən heyrətə düşdü ki, ilahi həqiqətləri dərk etmək qabiliyyəti ayrı-ayrı adamlara deyil, məhəbbətlə bir-birinə bağlanmış insan toplumuna - kilsəyə verilib. Onu sevindirən fikir bu idi ki, başqa Allaha etiqad etməklə insanların inancları üstündə qurularaq mövcud olan və indi də yaşayan, buna görə də müqəddəs və pak olan kilsəyə inanmaq, Allaha, yaradılışa, günaha, tövbəyə inanmağı kilsədən öyrənməkdən uzaq və sirli Allahdan, məxluqatdan və sairədən başlamaq daha asan olardı. Lakin sonra ayrı-ayrılıqda həm katolik, həm də pravoslav yazıçının kilsə tarixini oxuyub mahiyyətcə günahsız olan hər iki kilsənin bir-birini inkar etdiyini gördükdə o, Xomyakovun kilsə haqqındakı fikirlərindən məyus oldu və bu bina da fəlsəfi fikirlər kimi uçub dağıldı".

Tolstoy Levin obrazını "Allahsız, imansız" kimi göstərir... Kiti əri Levin haqqında deyir: "Levin deyir ki, dinə inanmağı çox istəyərdi. Bəs onda nə üçün inanmır? Bəlkə, çox düşündüyü üçün? Çox düşünməsinin səbəbi isə tənhalıqdır. Həmişə təkdir, tək". Bəs Levin nə üçün təkdir? Axı onun ailəsi, işi, həyatı var, beləlikdirsə o nə üçün təkdir? Əgər insanın heç kəsdən cavabını ala bilmədiyi bircə sual belə varsa, deməli, o bu və ya digər dərəcədə təklənmişdir. Levin həyatın mahiyyətini anlamaq istəyirdi, o, bilirdi ki, ölümü anlamaq mümkün deyil, necə ki, bir saniyənin fərqinə varmaq mümkün deyil. Yəni ölüm andır, insan anı anlamır, insanın anladığı zamandadır. Bu müqayisədə ölüm ana, həyat zamana bərabərdir. Yəni ölümü anlamaq mümkün deyil, heç olmasa həyatın mahiyyətini özümüz üçün aydınlaşdıraq. Levin qardaşının ölümündən sonra anlamışdı ki, ölüm sirrini heç kəsə verən deyil, yaxşısı həyatın, yaşamağın mənasını tapmaqdır. Və özünə sual verirdi: "O, ölümdən deyil, həyatın haradan, nə üçün, niyə yarandığı və nə olduğu haqda azacıq biliyə malik olmadan yaşamaqdan dəhşətə gəlmişdi".

Tolstoy kimi Levin də həyata verdiyi sualların cavabını nə xristianlıqda, nə də digər dinlərdə tam mənada tapmırdı. Ona görə də Levinin bu cür daxili gərginliyini müəllif belə bir bənzətmə ilə ifadə edir: "Levin oyuncaq və silah dükanlarında yemək axtaran adama bənzəyirdi". Bu ikibaşlı cümlə həm də bu cür yozumlara qapı aça bilər:

- Əgər bir şey heç bir yerdə yoxdursa, deməli, onu hər yerdə axtarmaq lazımdır.
- Levin ona görə əzab çəkirdi ki, itirdiyini - sualının cavabını doğru yerdə axtarmırdı.

Bütün bunlara səbəb isə onun daxili tərəddüdlər idi. Çünki Levin inamla inamsızlıq arasında idi. O, elmin suallarına dinin, dinin suallarınasa elmin cavab verməsinin arasında sıxışıb qalmışdı. Və bu da onun həyatında təzad yaradırdı. Həmin təzadlardan biri - daha barizi isə bu idi: "Arvadı doğduqda Levin üçün qeyri-adi bir hadisə baş vermişdi. Dinə inanmayan Levin dua etməyə başlamış və dua etdiyi dəqiqələrdə Allaha inanmışdı. Amma bu dəqiqələr ötüb-keçmiş və Levin öz həyatında o zamanki əhval-ruhiyyəsinə bir də qayıda bilməmişdi".

Tolstoy bütün bu ziddiyyətlərlə, sanki göstərmək istəyir ki, həyata verdiyimiz sualların cavabını həyatın özündə axtarmalıyıq, kənarda yox. Levin isə elə bilirdi ki, kitablar oxumaqla onu incidən suallarına cavab tapacaq. Bu aldanışa görə onu faciəsi getdikcə dərinləşirdi: "O, oxuyur, fikirləşir və nə qədər çox oxuyur, fikirləşirdisə məqsədindən bir o qədər uzaqlaşdığını hiss edirdi".

### Xoşbəxtlik müqayisəsi

Tolstoy Levinin xoşbəxtliyini onun tərəddüdləri ilə şübhəyə alır. Levin nə qədər çox tərəddüd keçirirsə bir o qədər də səadətli olmadığını sübut etmiş olur. Levin düşüncə adamıdır, həyatı məhdud məişət qanunlarından ibarət deyil, ona görə də o, yalnız real həyatda yaşadıqları ilə deyil, həm də düşündükləri ilə birgə mövcuddur. Buna görə də o yalnız fiziki varlığı ilə deyil, düşüncə adamı kimi də xoşbəxt olmalıdır. Buna mane olan isə onun daxili tərəddüdləridir - cavab tapmadığı saysız suallardır. Tərəddüdləri onu bir neçə istiqamətə yönəldir, o çoxtərəfli düşünür, - hansısa ideyanı tapanda onun naminə yaşamaq haqqında düşünür, ancaq həmin ideya dərhal bir əks-arqumentlə dağılır və yenidən onun ürəyinə şübhə toxumları səpilir və yaxasını növbəti cavabsız sualların, insanı boğan tərəddüdlərin əlinə vermiş olur: "Bir zamanlar Şopenhaueri oxuyarkən onun "iradə" sözünün yerinə "məhəbbət" sözünü qoymuşdu və bu yeni fəlsəfə Levinə iki gün - bu fəlsəfədən uzaqlaşana qədər - təsəlli vermişdi; lakin sonra bu fəlsəfəyə real həyatdan baxdıqda o, yüngül və isti saxlamayan bir paltar kimi göründü". Levinin əsas problemi özünü aldada bilməməsi ilə bağlıdır, xoşbəxtlik isə insandan isə özünü aldatmağı və ən əsası nəyəsə inandırmağı tələb edir. Levin "iradə" sözünü, "Məhəbbət"lə əvəz edir, amma başa düşür ki, bu dəyişim sünidir və insan həyatı ilə tam şəkildə bağlı deyil.

Bu tərəddüdlər onu ölümün astanasına gətirir: əsərin müəyyən hissəsindən sonra müəllif xoşbəxt ailə başçısı, - səadətli ailə sahibi olan Levin obrazını Tolstoy açır və əslində, onun da xoşbəxt olmadığını göstərir. Levin düşünür: "Özünün nə olduğunu və nə üçün mövcud olduğunu bilmədən yaşamaq mümkün deyil. Bunusa mən bilmirəm, deməli, yaymaq da olmaz... Bu sonsuz zamanda, əbədi materiyada, sonu olmayan əzada bir qovuq orqanizm ayrılır və bu qovuq bir az qaldıqdan sonra partlayır - bax, bu qovuq mənəm".

Tolstoy onun gərginliyini dəqiq göstərmək üçün yazır: "Xoşbəxt ailə sahibi, sağlam insan olan Levin intihar etməyə bir neçə dəfə o qədər yaxın olmuşdu ki, özünü asmamaq üçün kəndiri gizlətmişdi və özünü vurmaqdan qorxduğu üçün silah gəzdirmirdi".

Lev Tolstoyun oğlu Sergey Lvoviç Tolstoy "Anna Karenina"da həyat təsvirləri" adlı məqaləsində bu hissə barədə yazır və Levin obrazını Tolstoyun özü olduğunu vurğulayır: "Anna Karenina"nın son hissəsində Levinin həyatın mənasıyla bağlı düşüncələrinin Tolstoyun "Etiraf"dakı fikirləriylə yan-yana qoyanda məlum olur ki, Tolstoy bu hissəni yazmazdan əvvəl öz dünyasında da bu keçid dövrünü yaşayıb. Bu dövrdə onu incidən, narahat edən suallara cavabı kilsə təlimlərindən tapmaq istəyirdi. Levinin dindən keçən düşüncələri eyniylə Tolstoyun düşüncələridir. "Ölümlə sonlanan həyatın heç bir mənası yoxdur" fikrinə, "necə yaşayaq?" və "niyə yaşayaq?" suallarına heç bir təbii və ya humanitar elm cavab verə bilmir. Levin "ölümdən çox, həyatın haradan gəlib hara getdiyini, nə üçün getdiyini bilməməsinə görə vahimələnirdi". "Mən kiməm və niyə görə burdayam suallarına cavab bilmədən yaşamaq çox çətindir. Bunu mən bilmirəm və deməli, yaşaya da bilmərəm", Levin özünə deyirdi... Xoşbəxt ailə başçısı, sapsağlam adam Levin bir neçə dəfə intiharın həndəvərində dayandığına görə kəndiri özünü asmamaqdan ötrü gizlətmiş, güllələməməkdən ötrü üstündə tapança gəzdirməkdən qorxmuşdu. Levin nə özünü asdı, nə də gülləldi. O, yaşamağına davam etdi". Həyatın mənasının əlmdə axtarışları, intihara sürükləyən eyni əhval-ruhiyyə "Etiraf"da da var. Eynən Levin kimi Tolstoyun da intihara meyli vardı. "Etiraf"da yazırdı: "belə oldu ki, mənim kimi sağlam, xoşbəxt bir addım daha yaşaya bilmədiyimi başa düşdüm... Bax, məhz onda mən - belə xoşbəxt bir adam hər gün əynimi tək dəyişdiyim otağımda özümü asmamaqdan ötrü kəndiri gizlətdim və ova gedəndə özümlə tüfəng götürmədim ki, birdən həyatdan canımı qurtarmaqdan ötrü ölümün ən asan variantını seçərəm. Nə istədiyimi özüm də bilmirdim: mən həyatdan qorxurdum, ondan qaçırdım və həm də heç bir ümidim, gümanım da yox idi".

Levinin düşünməkdən bədbəxt olduğu başqa bir məqamda da tam aydın olur: "Levin özünü nə olduğunu və nə üçün yaşadığını düşündükdə buna cavab tapmayaraq məyus olurdu, amma bu barədə özündən soruşmadığı zaman, sanki, özünün nə olduğunu sanki bilirdi, çünki qəti və müəyyən bir şəkildə fəaliyyət göstərib yaşayırdı, hətta son zamanlar əvvəlkindən daha qəti daha aydın bir həyatla yaşayırdı". Əsərin sonuncu - VIII hissəsinin verilməsi həm də iki obrazın və iki ailənin müqayisəsi üçün əlamətdardır. Bu hissədə aydınlaşır ki, Levin bir cür - düşüncə bədbəxtidir, o düşünməkdən intiharın astanasına gəlib çıxır, Vronski isə "dəli olur", yəni fiziki cəhətdən məhv olur. Bununla da əsərin ilk cümləsinin məntiqi özünü göstərmiş olur:

"Bütün xoşbəxt ailələr eyni cür xoşbəxtdirlər, bədbəxt ailələrin isə hərəsi bir cür bədbəxtdir".

Sanki Tolstoy səkkizinci hissəyə qədər Levin və Kiti Xətt ilə göstərir ki, xoşbəxt ailələr var, ancaq bu son hissədə, sanki, həmin həqiqəti bir qədər kölgəyə altına salır, "xoşbəxt ailə yoxdur" düşüncəsini təlqin edir.



*Ardı var...*